

# ŞƏRQ qapısı


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 117 (24.254)

5 iyul 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Konstitusiya Məhkəməsinin hörmətli hakimləri və əməkdaşları!

Sizi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda beynəlxalq konfransın açılışı ilə əlaqədar səmimi-qəlbdən salamlayıram.

Konstitusiya Məhkəməsinin hazırkı yubileyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinin qeyd olunduğu dövrə təsadüf edir və bu, dərin simvolik məna kəsb edir. Məhz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında Konstitusiya Məhkəməsinin əsas səlahiyyətləri, bu təsisatın dövlət hakimiyyəti orqanları sistemində mühüm yeri və rolu müəyyən olunmuşdur.

Ötən illər ərzində Konstitusiya Məhkəməsi səmərəli fəaliyyəti ilə və qəbul etdiyi qərarlarla Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə, milli qanunvericiliyin, dinamik dəyişən ictimai münasibətlərə uyğun olaraq Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşdirilməsinə, cəmiyyətdə hüquq mədəniyyətinin və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etməsinə dəyərli töhfə vermişdir.

Əminəm ki, Konstitusiya Məhkəməsi bundan sonra da ölkəmizdə hüquqi dövlət və konstitusionalizm ideya və prinsiplərinin həyata keçirilməsində səylərini əsirgəməyəcəkdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərini və əməkdaşlarını 25 illik yubiley münasibətilə təbrik edir, konfransın işinə müvəffəqiyyətlər arzu edirəm!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 iyul 2023-cü il*




*2023-cü il "Heydər Əliyev İli"dir*

## Heydər Əliyev və İslami dəyərlər

Ulu Öndər Heydər Əliyev deyirdi: ***"Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik gətiribdir, inkişaf, İslami dəyərlər gətiribdir. Bu dəyərlər – müqəddəs kitabımız "Qurani-Kərim"dən gələn İslami dəyərlər Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir".***

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müqəddəs dinimizin fəlsəfi mahiyyətini böyük müdrikliklə belə izah edirdi: ***"Ulu Peyğəmbərimiz Məhəmməd əleyhissalamın yaydığı İslam dini və onun bütün müsəlman aləminə qoyduğu yadigar – "Qurani-Kərim" əsrlər boyudur ki, müsəlman dininə məxsus olan insanların həyatında çox böyük rol oynayır. Onların həyatı, yaşayışı, bu günü və gələcəyi, bu dünyada, o dünyada xoşbəxt olması üçün zəmin yaratdı").***

Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycan xalqının siyasi və mənəvi cəhətdən azadlığına, dövlətçilik prinsiplərinə, milli-mənəvi dəyərləri qorumaq və həyata keçirmək kimi nəcib bir məqsədə sərf etmişdir. Onun dəyərli kəlamları mahiyyət etibarilə İslami dəyərlərin müqəddəs hökmlərinə və onlardan irəli gələn əxlaqi vəzifələrə kömək etmişdir. Belə ki, Ümummilli Liderimiz Heydər Əliyevin İslami dəyərlərə verdiyi yüksək fəlsəfi qiymət, İslam dininin əxlaq davranışları ilə ibrətamiz qaydaları mühüm yer tutur. ***"Mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin İslam dini ilə həmişə fəxr etmişəm"***, – deyən dahi şəxsiyyət bir daha öz fəlsəfi fikrini açıq şəkildə izhar etmişdir.

İslami dəyərlər Azərbaycan xalqını uzun illər ərzində əxlaqi kamillik pilləsində saxlamış, onun mütərəqqi inkişafına kömək edən mədəniyyət formalaşdırmışdır. Eyni zamanda Azərbaycanın İslam mədəniyyəti ilə sıx bağlılığını göstərmişdir. Ulu Öndər Heydər Əliyev deyirdi: ***"Azərbaycanın İslam mədəniyyəti, İslam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və İslam mədəniyyətini zənginləşdirmişlər. Biz bunlarla fəxr edirik".***

Ümummilli Lider Heydər Əliyev İslami dəyərlərə, müqəddəs "Qurani-Kərim"in ayrı-ayrı hökmlərinə, şəriət qaydalarına, müxtəlif İlahi göstərişlərə, müqəddəslərə, ayin və mərasimlərə, peyğəmbərlərə və onların varislərinin elmi-fəlsəfi fikirlərinə böyük etiqadın əhəmiyyətli olmasını qeyd edir: ***"Dini etiqad Allahın varlığı ilə əlaqədardır. Ona görə Allahın insanlar tərəfindən qəbul edilməsi ilə müxtəlif dini inanclar, o cümlədən tövhid məsələsi də qəbul edilir. Bununla belə Allahın varlığına inanmaq hər bir şeyin mövcudluğuna inanmaq deməkdir". Həmçinin o deyirdi: "İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir".***

İslami dəyərlər insanları maarifləndirərək, həyatı dərk etməyi anladır və yalnız Yaradan qarşısında azad insan əməyini təbliğ etmək prinsipini göstərir. ***"Bizim ənənələrimiz, mənəvi, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır. Biz, bizim nəsil, hamımız birlikdə – indi yaşayan insanlar xoşbəxtdirlər ki, bu günə gəlib çatmışıq, bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, öz taleyimizin sahibiyik, dini, mənəvi-milli adət-ənənələrimizi bərpa etmişik və daha da geniş təbliğ edirik".*** Həmçinin Ulu Öndər Heydər Əliyev deyirdi: ***"Hər bir şəxs hürrdür, azaddır, öz əməllərini, öz fikirlərini həyata keçirə bilər".*** Bu da insanların mütərəqqi inkişafı üçün böyük önəm daşıyır və nəticədə, kamillik və ariflik bilgisinə nail olunur. İslami dəyərlərdə olan ayrı-ayrı dini ayin və mərasimlərin icrasını, Məkkə, Mədinə, Həcc, Kərbəla və Məşhəd ziyarətlərini, müqəddəslərə inamın xeyirli və insan mənəviyyatı üçün arzu olunmaz dərəcədə dəyərli və gərəkli olduğunu, həmçinin insanların həyatı üçün xoşbəxtlik və sevinc gətirməsini bütün varlığı ilə qeyd edən Ulu Öndər deyirdi: ***"İslamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd (s) Peyğəmbərin məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm".***

İslami dəyərlərdə gözəl əxlaq əsas götürülür, dini etiqad və adətlər adamları pis işlərdən çəkindirir. Deməli, İslami dəyərlərin yerinə yetirilməsi, adət-ənənələri yerinə yetirmək, milli-mənəvi dəyərlərin qorunub saxlanılması insanların mənəvi tələbatına çevrilib. İbadət və itaətlə, halal əməklə ömür sürən bəşər övladı gözəl əxlaqi davranış qaydalarına riayət etməkdən qürur duymaqla bu nemətlərdən səmərəli istifadə etmiş olur. ***"İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməli və xüsusən, cəmiyyətdə davranışda islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir"*** deyən Ümummilli Lider Heydər Əliyev bir daha xalqımızın yüksək əxlaq sahibi olmaq imkanlarını vurğulamışdır.

Ümummilli Liderimiz deyirdi: ***"Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk".***

Həmçinin Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının digər dinlərə olan münasibətini belə bir həqiqət anlamında qeyd edirdi: ***"Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir".***

İslami dəyərlərdə dini etiqad nəinki insanları xoş əxlaqlı hərəkət etməyə sövq edir, həmçinin pis işlərdən çəkindirir, onların mənəviyyatını daha da işıqlandırır. İslami dəyərlər, həqiqətən də, deyildiyi kimi insanlar arasındakı münasibətləri yaxşılaşdırır, ailənin səmimi və mehriban olmasına rəvac verir. İslami dəyərlərdə din insanlarının mənəviyyatını saflaşdıran, onları yüksək əxlaq ruhunda tərbiyə edən bir vasitə olmuşdur. Əksər gənclərimizin təlim-tərbiyə obyekti olan təhsil ocaqlarında milli-mənəvi dəyərlərin mənimsənilməsi, cəmiyyətin sağlam və saf insanların inkişafına gətirib çıxarır. Dahi şəxsiyyət Heydər Əliyev deyirdi: ***"Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".*** Belə ki, insanlar dini elmlərlə yanaşı, müasir dünya elmlərinin sirrini öyrənmək vasitəsilə həyatın mənasını dərk edir, elm, təhsil, maarif yolu ilə kamilləşərək mənəviyyatca yüksək əxlaq sahibi olmalarını nümayiş etdirirlər.

Mənəvi kamilliyə yetişən bəşər övladı, demək olar ki, sərbəst olmaq imkanlarını görür və getdikcə daha geniş mənada başa düşürlər ki, Allah insanları nə qədər dəyərli və gözəl xilqətdə xəlq etmiş, onlarda dostluğa, həmrəyliyə, birliyə çağıran düşüncə qabiliyyəti qoymuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: ***"İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir".***

İslami dəyərlər belə bir nəzəriyyəni də əsaslandırır ki, insanların iradə azadlığı dinlə bağlıdır, iradə azadlığı ilə çərçivəsində insanlar hamısı elmə və biliyə nail ola bilərlər. XV əsrin görkəmli ilahiyyatçı alimi və filosofu Baba Nemətullah Naxçıvani deyirdi: "Söyləyənə deyil, söylədənə bax". Həqiqətən, İslami dəyərlərin təbirincə desək, insanların əqli inkişafı, savad dərəcəsi nə qədər yüksək olarsa, onlar öz hərəkətlərində bir o qədər azad və firavan olarlar.

***"Biz Azərbaycanlılar – bu, sonralar gələcək bütün nəsillərə də tövsiyə olunur heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq"***, – deyən Ulu Öndərimiz bir daha öz yüksək fəlsəfi dəyər bilgisini bəyan etmişdir. Düşünürük ki, Ümummilli Lider Heydər Əliyev və onun İslami dəyərlərə verdiyi yüksək önəm, insan əxlaqının nizamlanmasına və gələcək nəslin saf və sağlam yetişməsi üçün əhəmiyyətlidir.

**Səbuhi İBRAHİMOV**
*AMEA-nın dosenti*

## Baş prokuror Naxçıvanda vətəndaşları qəbul edəcək

Baş prokuror Kamran Əliyev iyulun 11-i saat 10[00]-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayon sakinlərinin qəbulunu keçirəcək. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Qəbulla bağlı vətəndaşların qeydiyyatı və Naxçıvan şəhərinə gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək. Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin (036)-550-14-96 nömrəli telefonu, contact@prosecutor.gov.az və nakhchivan.mr@prosecutor.gov.az elektron poçt ünvanları, həmçinin prokurorluğun sosial şəbəkələrdəki səhifələri (Instagram, Facebook, Twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

**Xəbərlər şöbəsi**

## "Naxçıvan" Universitetinin Beynəlxalq əlaqələr və strateji inkişaf üzrə prorektoru vəzifəsinə yeni təyinat olub

*Dünən "Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov yeni prorektoru kollektivə təqdim edib. Rektor bildirib ki, Beynəlxalq əlaqələr və strateji inkişaf üzrə prorektor vəzifəsi universitetdə yeni təsis olunub.*



Anar Kazımov qeyd edib ki, bu vəzifəyə Rza Məmmədovun təyin olunması təqdirəlayiqdir. Rza Məmmədov uzun illər bir sıra müxtəlif vəzifələrdə çalışıb, həmçinin beynəlxalq əlaqələr sahəsində böyük təcrübəyə malikdir.

Rza Məmmədova uğurlar arzu edən rektor yeni təyinatla universitetin Avropanın elm və təhsil məkanında gedən inteqrasiya proseslərinə qoşularaq bu sahədə səmərəli fəaliyyət göstərəcəyinə, müxtəlif beynəlxalq proqramların iştirakçısı olacağına, daha nüfuzlu beynəlxalq reytinqlərdə yer tutacağına əminliyini bildirib.

"Naxçıvan" Universitetinin Beynəlxalq əlaqələr və strateji inkişaf üzrə prorektoru vəzifəsinə təyin olunan Rza Məmmədov ona göstərilən etimada görə universitetin rəhbərliyinə minnətdarlığını bildirərək bu etimadı doğruldacağını və universitetin regionun aparıcı universitetlərindən biri olması istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

Məlumat üçün bildirək ki, Rza Məmmədov 2007-2010-cu illərdə Türkiyə Anadolu Universitetini İqtisadiyyat ixtisası üzrə bakalavriatı, 2011-2014-cü illərdə Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə magistraturanı bitirib. 2014-cü ildə Türkiyə Eskişehir Osmanqazi Universitetinin təhsil elmləri institutunun Təhsilin idarəedilməsi, təftişi, planlaması və iqtisadiyyatı ixtisası üzrə doktoranturaya daxil olub, 2018-ci ildə 29 yaşında fəlsəfə doktoru elmi dərəcəsini alıb. Paralel olaraq 2017-ci ildən Brüssel Universitetinin Təhsil fakültəsində müəllim vəzifəsində elmi-pedaqoji fəaliyyətə başlayıb və uzun illər bir çox müxtəlif vəzifələrdə çalışıb.

*"Naxçıvan" Universitetinin mətbuat xidməti*

Turizm

# Məşhur fransız fotoqraf Laçın və Naxçıvana səfər edib



*Məşhur fransız fotoqraf, yazıçı, rejissor Qreqori Herpe Azərbaycana səfəri çərçivəsində Laçın və Naxçıvan şəhərlərində olub.*

Bu barədə “Şərq qapısı”na Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Fransada Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə baş tutan səfər yenidən qurulan Laçın şəhərindən başlayıb.

Azərbaycan dövləti tərəfindən qısa müddət ərzində Laçın şəhərində aparılan bərpa və quruculuq işlərini möhtəşəm layihə adlandıran Qreqori Herpe yenilənmiş Laçında gördüklərindən çox təsirləndiyini və heyrətləndiyini etiraf edib. Əhalinin Laçına qayıdışını, həyatın burada canlandığını vurğulayıb, şəhərin tezliklə müxtəlif beynəlxalq festivallara və tədbirlərə ev sahibliyi edəcəyinin mümkün olduğunu söyləyib.

Sonra fotoqraf Naxçıvan şəhərinə yola düşüb. Azərbaycanın qədim şəhərindəki Naxçıvanqala, Nuh türbəsi, Əshabi-kəhf, Gəmiqaya, Əlincə qalası, Möminə xatın türbəsi, Heydər Məscid kompleksi, Heydər Əliyev Muzeyi kimi tarixi-mədəni, dini abidələrlə tanış olub və xatirə kitablarına ürək sözlərini yazıb. Fotoqraf məşhur Batabat gölünü və Duzdağ Fizioterapiya Mərkəzini də lentə alıb.







Qreqori Herpe bu səfərin təşkilinə görə Diasporla İş üzrə Dövlət Komitəsinə təşəkkürünü bildirib. Qonağı səfərdə Paris Azərbaycan Evi Təşkilatının sədr müavini, Fransada Azərbaycanın Dostları Assosiasiyasının layihə rəhbəri Mehri Quliyeva, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Arif Abbasov və Aydın Mahmudov müşayiət ediblər.

Qeyd edək ki, bundan öncə fransız fotoqraf Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Fransada Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə 2021 və 2022-ci illərdə Qarabağda səfərdə olub. Səfərlər zamanı Ermənistanın otuzillik işğalı nəticəsində dağıdılmış tarixi və mədəni irs nümunələrimizi, Azərbaycan tərəfinin apardığı bərpa-quruculuq və minatəmizləmə işlərini lentə alıb.

Həmin fotoşəkillər Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində “Qarabağ: sülh dövründə” və Avropa Parlamentinin Altiero Spinelli binasında “Qarabağ müharibədən sonra” adlı sərgilərdə nümayiş etdirilib.



Xatırladaq ki, dünya təsviri incəsənətinin müasir nümayəndələrindən biri olan fotoqraf 25 fevral 1969-cu ildə Fransada anadan olub. Nyu-Yorkda “Polaris Images” və Honq Konqda “Sopa Images” mətbuat agentliklərində fotomüxbir kimi çalışır. Vaxtilə Fransa və İngiltərə KİV-lərində jurnalist və baş redaktor işləyib. Hazırda Fransadakı bir sıra qeyri-hökumət təşkilatları ilə mütəmadi olaraq əməkdaşlıq edir. Fotoəsərləri Paris, Kann, Barselona, Bristol, Boston, San



Dieqo, Sürix, Afina və Strasburq və sair şəhərlərdə nümayiş etdirilib. Bir sıra nüfuzlu beynəlxalq mükafatların laureatıdır.

Aktyor, rejissor və yazar kimi Avropada teatr tamaşalarının quruluşçu rejissoru olub, Fransa və Kanadada çoxsaylı ədəbi əsərlər nəşr etdirib.

2019-cu ildə Azərbaycanda olarkən fotoqraf paytaxtımız haqqında xoş təəssüratlarını “British edition of London Street Art Design” jurnalında bölüşüb: “Memarlıq və dizayn həvəskarısınızsa, Bakı sizin üçün lazımi yerdir. Bu qədim şəhərin içindən keçəndə bir çox memarlıq üslubuna vurulursan”.

Eyni zamanda 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanı dəstəkləyən fikirlər və yazılarla çıxış edib.

**Xəbərlər şöbəsi**

# “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsi əkinçiliyin inkişafına öz töhfəsini verir

***Ölkəmizdə kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılması sahəsində ardıcıl tədbirlər görülür. Müasir meliorasiya və irriqasiya sistemləri qurulur, yeni torpaqlar əkin dövriyyəsinə qatılır, torpaq mülkiyyətçiləri texnika və gübrə ilə təmin edilirlər. Xüsusilə kənd təsərrüfatının strateji əhəmiyyətli sahələrdən biri olan toxumçuluğun inkişafı diqqətdə saxlanılır. Əkinçilikdə toxuma olan tələbatı ödəmək və toxumluq məhsulların istehsalını artırmaq üçün yeni toxumçuluq təsərrüfatları yaradılır, iqlim və torpaq xüsusiyyətlərinə uyğun məhsuldar toxum sortları yetişdirilir.***

Ölkəmizin dilbər guşəsi Naxçıvanda da bu sahədə ardıcıl işlər görülür. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyində “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin yaradılmasında da məqsəd bu sahənin inkişaf etdirilməsidir. Mərkəzin əsas fəaliyyəti kənd təsərrüfatı ilə məşğul olan şəxslərin, ailə təsərrüfatçılarının yüksək keyfiyyətli toxuma olan tələbatını ödəməkdir. Bu barədə həmsöhbətimiz “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin direktoru ***Əbülfət Əhmədov***dur. Onun sözlərinə görə, mərkəz toxumçuluq sahəsində dövlət siyasətini həyata keçirir, muxtar respublikada toxumun istehsalını, tədarükünü, saxlanmasını və satışını yerinə yetirir. Həmçinin kənd təsərrüfatı məhsulları istehsalçılarının yüksək məhsuldar bitki





sortlarının toxumları ilə təchiz olunması istiqamətində tədbirlər görür, daxili bazarda toxum çatışmazlığının və qiymət artımının qarşısının alınmasında da iştirak edir. Naxçıvanın əlverişli təbii coğrafi şəraitinə görə bütün rayonlarımızda taxılçılıqla məşğul olan iri təsərrüfatçılar var. Mərkəzin yaxşı fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılıb və bu da imkanlarımızı artırır. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 11 oktyabr tarixli Qərarı ilə Kəngərli rayonu Böyükdüz ərazisinin qışotlaq sahəsində “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin istifadəsinə 2069 hektar (o cümlədən suvarma şəbəkəsi tikilmiş ərazi 1960 hektar) sahə ayrılmışdır. Eyni zamanda müəssisənin balansında taxıl anbarı, qarışıq yem sexi, toxumların satış mərkəzi, tutumu 500 ton olan hazır məhsul anbarı, texnika və avadanlıqların saxlanılması üçün qaraj, eləcə də təmiri sexi daxildir. Burada ümumi tutumu 24 min ton olan 48 bunker vardır. Hər birinin tutumu 500 ton olan bunkerlər taxılın keyfiyyətlə və uzun müddətə saxlanılmasına imkan verir.

Müsahibim qeyd edir ki, üçmərtəbəli toxum satış mərkəzində 9 iş otağı, laboratoriya, mətbəx, qazanxana və satış zalı yerləşir. Laboratoriyada quraşdırılan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortlarının genofonduna və seleksiyasına nəzarət olunur. Satış mərkəzində taxıla yanaşı, digər kənd təsərrüfatı bitkiləri toxumlarının, eləcə də dekorativ güllərin, meyvə tinglərinin, gübrələrin, dərman preparatlarının, qarışıq və qüvvəli yemin, kənd təsərrüfatında istifadə olunan alət və avadanlıqların da satışı həyata keçirilməkdədir.

Mərkəzdə müxtəlif toxum sortlarının yetişdirildiyindən bəhs edən direktor onu da diqqətimizə çatdırır ki, “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin əkinəyararlı torpaq sahələrində muxtar respublikamızın torpaq, iqlim şəraitinə uyğunlaşdırılmış payızlıq buğda və arpa sortları əkilib becərilir. Həmin sortlardan “Qılçıqsız-1”, “Fatimə”, “Qobustan”, “Ceyhan-99”, “Sönməz”, “Konya”, “Bayraktar” buğda sortlarını və “Qarabağ” arpa sortlarını göstərmək olar. 2022-ci ilin payızında “Naxçıvan Toxumçuluq Mərkəzi”nə məxsus olan Böyükdüz kəndi ərazisindəki əkin sahələrində 930,9 hektar sahədə əkin aparılmışdır. Ondan 53 hektar arpa, qalan 877,9 hektarında isə müxtəlif buğda sortları əkilmişdir.



Yetişdirilmiş məhsul biçilib “Naxçıvan Toxumçuluq Mərkəzi”nin anbarlarına yığılır və toxum təmizləyən aqreqat vasitəsilə hər bir sort ayrıayrılıqda mütəxəssis nəzarəti altında təmizlənir, dərmanlanır, toxumçuluq mərkəzinə məxsus olan laboratoriyada cücərmə faizi, cücərmə enerjisi, sort təmizliyi analizləri aparılır. Bundan sonra hazırlanmış yüksək kondisiyalı toxum materialı sertifikatlaşdırılır və sahibkarlara təqdim olunur.

Əbülfət Əhmədov onu da qeyd edir ki, əkinçiliklə məşğul olan sahibkarlarla əlaqələri çox geniş və əhatəlidir. Belə ki, muxtar respublikada bu sahə ilə məşğul olan fermer və torpaq mülkiyyətçilərinə yaşadıqları ərazinin torpaq, iqlim xüsusiyyətləri nəzərə alınaraq ona uyğun sortların əkilməsi məsləhət görülür. Sahənin əkinə hazırlanması, şum altına üzvi və mineral gübrələrin verilməsi, səpinin aparılması, səpinlə birlikdə gübrələrin verilməsi, torpaq suyu, yemləmə gübrəsinin verilməsi, vegetasiya suvarmaları, alaq otlarına, sürmə və pas xəstəliklərinə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi, herbisid və funqisidlərlə dərmanlanması haqqında ətraflı məsləhətlər verilir.

Müsahibim bu günlərdə hamını narahat edən qlobal su problemindən də danışdı və əkinçilərə bəzi məsləhətlər verdi: – İqlim dəyişikliyi ilə əlaqədar olaraq dünyada, o cümlədən muxtar respublikada su hövzələrində suyun səviyyəsi azalmaqda davam edir. Bu azalmanın qarşısını almaq üçün meşə və yaşıllıqların artırılması, həmişəyaşıl ağacların əkininin artırılmasına çox böyük ehtiyac vardır. Bu problemin qarşısının alınmasında hər bir vətəndaşın üzərinə çox böyük məsuliyyət düşür. İçməli və təsərrüfat sularının istifadəsi zamanı itkiyə yol verilməməli, daha qənaətlə istifadə olunmalıdır. Əkinçilər əkdikləri sahələrin suvarılmasında şırım üsulunu tətbiq etməklə və suya nəzarət etməklə su sərfini minimuma endirə və su itkisinin qarşısını ala bilərlər.

*Burada gördüklərimiz belə qənaətə gəlməyə imkan verir ki, muxtar respublikada toxumçuluq sahəsində işlər uğurla yerinə yetirilir. Əkinçilərimiz bu mərkəzlə sıx əlaqə saxlamaqla öz əkin sahələrinin torpağına uyğun toxum sortları əkir və bol ruzi əldə edir.*

**✍ Ramiyyə ƏKBƏROVA**

# Uşaq İncəsənət Festivalının II mərhələsi başlayıb



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mədəniyyət, Elm və Təhsil nazirlikləri və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən II regional mərhələsinə Naxçıvanda, həmçinin ölkəmizin digər regionlarında start verilib. Qeyd edək ki, festivalın keçirilməsində məqsəd Ümummilli Lider Heydər Əliyevin mədəniyyətə və gənclərə qayğısını rəhbər tutaraq milli mədəniyyətin və incəsənətin təbliği, uşaqların milli vətənpərvərlik, mədəniyyətə, incəsənətə, milli adətənənələrimizə hörmət ruhunda tərbiyə edilməsi, onlarda mədəni həyat tərzinin formalaşdırılmasının təşviq edilməsidir.

Festivalın keçirilməsinin əsas vəzifələri uşaqlarda mədəniyyətin müxtəlif sahələrinə maraq oyadılması, yeni istedadların üzə çıxarılması, regionlarda incəsənət sahəsində çalışan işçilərin fəallığının təmin edilməsi, xüsusi bacarığa malik olan uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsidir.

Fərdi və kollektiv formada, üç mərhələdən ibarət olmaqla keçirilən festivalda 6-17 yaş arası peşəkar və həvəskar şəxslər, üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) iştirak edir. Festivalın ikinci mərhələsində muxtar respublika üzrə I mərhələdə 16 nominasiya üzrə uğur qazanmış 128 fərdi iştirakçı və 7 kollektiv iştirak edəcək.

İkinci mərhələdə qalib olmuş iştirakçılar final mərhələsində iştirak etmək hüququ qazanırlar. Festivalın final mərhələsi cari ilin sentyabr ayında Bakı şəhərində keçiriləcək. Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Yeni Dövlət Proqramı geniş perspektivlər və böyük ümidlər vəd edir

*Tarixi ədalətsizlik nəticəsində ölkəmizin əsas hissəsindən ayrı düşmüş qədim Azərbaycan torpağı Naxçıvanın inkişafı, burada gedən sosial-iqtisadi proseslər həmişə diqqət mərkəzində olmuş, ölkəmizin dövlət müstəqilliyi illərində bu istiqamətdə zəruri dövlət tənzimləmələri həyata keçirilmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin respublikamıza rəhbərliyinin ilk illərindən başlayaraq ozamankı sovet dövlətinin sərhədyanı ucqar bölgəsi sayılan Naxçıvanın inkişafı üçün ciddi addımlar atılmış, sənaye müəssisələrinin yaradılması, ətraf mühitin qorunması, kənd təsərrüfatının, yol-nəqliyyat və enerji infrastrukturunun inkişafı üçün zəruri tədbirlər görülmüş, qədim diyarda turizmin gələcək inkişafı üçün təməllər atılmışdır. Naxçıvanın mədəni potensialının daha da inkişaf etdirilməsi üçün o zamanlar mövcud olmuş sovet blokadası məhz Ulu Öndərin öndərliyi ilə qırılmış, muxtar respublikaya mədəniyyət ustalarının səfərləri təşkil olunmuş və burada fəaliyyət göstərən mədəniyyət və incəsənət xadimlərinin ölkəmizin və dünyanın müxtəlif yerlərinə səfərləri reallaşdırılmışdır. Ozamankı inkişafının ən yüksək mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə, idman və bədən tərbiyəsi kimi mühüm sosial sahələrdə görünməmiş səviyyə əldə olunmuş, ucqar kəndlərdə xəstəxanalar yaradılmış, belə yaşayış məntəqələrində yüzlərlə şagirdin təhsil aldığı orta məktəblərdə hər il ən azı “A” və “B” sinifləri üzrə məzunlar buraxılmış, əhali artımında yüksək nəticələr əldə olunmuşdur.*



Lakin sovet dövlətinin çökməsi və müstəqil ölkəmizin dərhal düşmən təcavüzünə məruz qalması ilə nəticələnən dağılma prosesləri bütün iqtisadiyyatda və sosial mədəni sahələrdə ciddi problemlər yaratmış və blokada vəziyyətinə düşmüş Naxçıvan uzunmüddətli tənəzzül dövrünə girmişdir. Bununla da, indinin özündə də Bakıya və ölkəmizin digər yerlərinə gediş-gəlişlərdə davam edən çətinliklər kimi bir sıra problemlər hələ də qalmaqda, nəqliyyat, logistika, getmə və gəlmə turizmi sahəsində bunlar açıqca hiss olunmaqdadır. Bununla yanaşı, 1990-cı illərin əvvəllərində Ulu Öndərin Naxçıvandakı yorulmaz fəaliyyəti sayəsində bir çox fəlakətlərdən xilas olmuş muxtar respublika əhalisi daha sonrakı dövrlərdə də ölkə rəhbərinin daim diqqət və qayğısı ilə bütün çətinliklərin öhdəsindən gəlmişdir. Artıq Naxçıvan möhkəm müdafiə olunan, ərzaq və enerji təhlükəsizliyi sahəsində tam təmin edilən bir regiona çevrilmiş, Qarabağın düşmən işğalından sonra yaranmış yeni geostrateji reallıq fonunda Zəngəzur dəhlizi üzərində ən aparıcı arteriyalardan biri halına gəlmişdir. Yaranan bu reallıq Naxçıvanın hərtərəfli inkişafı üçün daha da geniş perspektivlər açmaqla qarşıdakı dövr üçün ölkə rəhbərliyinin də diqqətini cəlb etməkdədir. Cari ilin 5 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”, bu mənada, Naxçıvan iqtisadi regionunun yaxın gələcəkdə ölkəmizin digər regionları ilə daha sıx inteqrasiya olunması, iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi kimi vacib məsələlərinin həllini özündə ehtiva edir. Olduqca geniş və əhatəli hazırlanmış, müasir dünyadakı qlobal trendləri, eləcə də ölkəmizin milli xüsusiyyətləri və Naxçıvanın yerləşdiyi coğrafi mövqeyi nəzərə alınmaqla hazırlanan bu vacib dövlət sənədinə regionda dayanıqlı iqtisadi artımın dəstəklənməsi, layiqli məşğulluq imkanlarının yaradılması, bölgə əhalisi üçün əlçatan, etibarlı və müasir enerji xidmətləri, xüsusilə bərpa olunan enerji mənbələrindən istifadə edilməsi, habelə təmiz enerji texnologiyalarının tətbiqi, iqtisadi inkişafı və insan rifahını dəstəkləyən keyfiyyətli və möhkəm infrastrukturun qurulması, habelə ekoloji ekosistemlərin dayanıqlığının təmin edilməsi kimi beynəlxalq inkişaf prioritetləri daxil edilmişdir. Bu prioritetlər istiqamətində qarşıya qoyulmuş hədəflər isə Dövlət Proqramında ciddi analitik təhlillə ifadə olunaraq aidiyyəti qurumlar qarşısında konkret vəzifələr kimi göstərilmişdir.

Dövlət Proqramının təsdiq olunması haqqında Prezident Sərəncamında Naxçıvanda arzuedilən nəticələrə nail olmaq üçün əldə olunmuş nailiyyətlər fonunda gələcəkdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlər kimi ifadə olunmuşdur. Şübhəsiz, Dövlət Proqramının qarşıya qoyduğu vəzifələri tam olaraq görə bilmək, burada tələb olunan həllivacib məsələləri lazımınca mənimsəmək üçün bu sənəddə kifayət qədər başlıq və yarımbaşlıqlarda konkret müddəalar vardır. Ancaq burada məhz Prezident Sərəncamında da qeyd olunduğu kimi, muxtar respublikanın kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi ilkin müddəa olaraq diqqəti cəlb edir. Bu da təsadüfi deyildir, çünki Naxçıvanın aqrar region olması, buradakı sakinlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi üçün tədbirlər görülməsi, əhalinin iri şəhərlərə məqsədsiz miqrasiyasının qarşısının alınması, yerlərdə yeni iş yerlərinin yaradılması kimi qlobal trendlərə uyğun siyasət aparılması bu sahədə qarşıya qoyulmuş ciddi vəzifələrdəndir. Bu bir reallıqdır ki, hələ də Naxçıvanda kənd təsərrüfatı məhsullarının emalı və onların standartlara uyğun şəkildə daxili bazarlarda satışı və ixracı istiqamətində müəyyən problemlər qalmaqdadır. Naxçıvanın yüksək keyfiyyətli orqanik ət və süd məhsullarının əksər hissəsinin müasir alıcının tələbatlarına cavab vermədən hələ də kustar üsulla emal və qablaşdırılma ilə alıcıya təklif olunması həm istehsalçı, həm də istehlakçılara zərər vurmaqdadır. Bu gün Naxçıvana gələn turistlər yerli məhsulların satıldığı bazarlarda bunları gördükdə təəssüflərini gizlətmirlər. Nəticədə, onsuz da əl əməyinin yüksək olduğu, əsasən, ekstensiv məhsuldarlıqla yekunlaşan ucqar kəndli əməyi son məhsulun bu şəkildə dəyər qazanmasından daha da çox itirir. Qəssab dükanlarında ətin qiymətinin paytaxt Bakı ilə müqayisədə ən azı 20 faiz ucuz olduğu Naxçıvanın marketlərində satılan konservləşdirilmiş ətin, qablaşdırılmış pendirin, xamanın və kərə yağının, demək olar ki, tamamən idxal mənşəli olması, südün isə haradan gəldi tapılıb toplanılan və hijyenik vəziyyəti həmişə alıcıda şübhə doğuran işlənmiş plastik su butulkalarına doldurulub satılması, kəsilmiş heyvan dərisinin bir manata belə satılmaması bu sahədə nə qədər boşluqların olduğundan və eləcə də yeni bazar imkanlarının mövcudluğundan xəbər verir. Eyni vəziyyəti meyvəçilik və tərəvəzçilik sahəsində də görmək olar. Son dövrlərdə həm mövsümdə, həm də qeyri-mövsümdə Naxçıvan bazarında alıcılar üçün uyğun qiymətə satılan Quba alması, Cəlilabad kartofu, Qazax pomidoru və Xaçmaz tomatının yerli məhsullarla müqayisədə daha rəqabətqabiliyyətli olması, bu mənada, düşündürücüdür. Qiymətlərə gəldikdə isə artıq qızmar iyul ayında Naxçıvan bazarında satılan tərəvəz məhsullarının ölkəmizin digər yerləri ilə müqayisədə azı 2,5 dəfə baha olması təhlil və proqnozlaşdırma işi ilə məşğul olan iqtisadçı məmurların, yəqin ki, diqqətindən qaçmamışdır.

Kəndlərdə yeni iş yerlərinin yaradılması, kəndlinin sahib olduğu torpaqlardan daha çox faydalanması insanların bu ərazilərdə daim məskunlaşmasında əsas faktorlardan biri olduğundan yuxarıda qeyd olunanların, bu mənada, diqqətdə saxlanılması da təsadüfi deyildir. Eləcə də kənd yerlərində, xüsusən ucqar yaşayış məntəqələrində gənclərin asudə vaxtının təşkili, onların sosial həyatının zənginləşdirilməsi, ucqar kəndlərlə rayon mərkəzləri və Naxçıvan şəhəri arasında müntəzəm sərnişin nəqliyyatının qaydaya salınması ailələrin şəhərə köçünün qarşısının alınmasında həllivacib məsələlərdəndir.

Dövlət Proqramında qarşıya qoyulan vəzifələrdən biri Naxçıvanda azad iqtisadi zonanın yaradılmasıdır. Azad iqtisadi zonalar yaradıldığı regionda biznesin və ümumilikdə, iqtisadi fəallığın artırılması baxımından əlverişli fürsətlər yaradır. Bu mənada, gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə Naxçıvana gəliş-gedişlərin daha da asanlaşması nəticəsində bölgəyə səfər edəcək olan insanların burada sərfəli qiymətlərlə alış-veriş etmələri, eyni zamanda yeni iş yerlərinin açılması və əhali gəlirlərinin artırılması perspektivlərindən xəbər verir. Bu mənada, yeni imkanlar baxımından Naxçıvanda turizmin inkişafının keyfiyyət mərhələsinə keçəcəyini ümid etmək olar. Belə ki, hava yolu ilə gediş-gəlişlərin həm əziyyətli, həm də baha olduğu indiki şəraitdə Naxçıvana səfərlərin çətinliyi ilə yanaşı, buradakı zəngin turizm ehtiyatlarının hələ də tam gücü ilə həm də dayanıqlılıq prinsiplərinə uyğun şəkildə istifadə olunmaması əlaqədar qurumlar qarşısında ciddi vəzifələr şəklində durmaqdadır. Xüsusən Naxçıvanda təbiət abidələri və təbii rekreasiya obyektlərindən istifadədə yeni yanaşmalar tələb edir və tarixi-mədəni potensialın turistlərə təqdimatında müəyyən problemlər qalmaqdadır. Naxçıvanda fəaliyyət göstərən muzeylərin bayram günlərində hələ də bağlı qalması kimi nədənsə həll oluna bilinməyən məsələ, əsasən, həmin günlərdə regionumuza səyahət edən yerli və əcnəbi turistlərin narazılığını yaratmaqda, bu müəssisələrə girişlərin hələ də pulsuz olması isə onların gəlirlərinin itirilməsinə səbəb olmaqdadır. Eləcə də turistlərə xidmət göstərən servis heyəti üzvlərində, xüsusən restoran heyətindəki qeyri-peşəkarlıq çox zaman qonaqların diqqətindən yayınmır. Bu da, öz növbəsində, təklif edilən xidmətlərin əlavə dəyər qazanmadan keyfiyyətsiz göstərilməsinə səbəb olur. Bununla yanaşı, Naxçıvanda daxili turizmə marağın artması, xüsusən kənd yaşıl turizminə dağ kəndlərində yaşayan insanların marağının artması bu sahədə perspektivləri artıran güclü tərəflərdəndir.

Təmiz ekoloji şərait insanların sağlam həyatı üçün ən vacib şərtlərdən biridir. Bu mənada, tullantılı sənayenin çox az olduğu Naxçıvanda axar su hövzələrinin, yaşıllıq ərazilərinin və ümumilikdə, bütün ərazinin məişət və təsərrüfat tullantıları ilə çirkləndirilməməsi üçün nəzarət və maarifləndirmə işləri həmişə öz aktuallığını qoruyur. Xüsusilə suvarma suyunun çox qiymətli olduğu Naxçıvanda inşaat və təmir işləri zamanı çoxillik ağacların yerli-yersiz kəsilməsi, yeni salınan yaşıllıqların isə vaxtında suvarılmaması hələ də müşahidə olunur. Şahbuz və Ordubadın ekoloji təmiz dağlıq ərazilərində təbii ekosistemin, xüsusilə də nəsli kəsilməkdə olan fauna və flora növlərinin qorunması ilə yanaşı, dərman bitkilərinin biznes məqsədilə toplanılıb kökünün kəsilməsi, çöl donuzları kimi sürətlə artan vəhşi heyvanların digər populyasiyaları sıxışdırıb çıxarmasına və kənd təsərrüfatına ciddi ziyan vurmasına göz yumulması da ekoloji vəziyyətə məsuliyyət daşıyanlar tərəfindən ötən dövrdən Naxçıvana miras qalan problemlərdəndir. Bu sahədə elmi əsaslarla ekoloji monitorinqlərin aparılması, axar su hövzələrinə məişət və təsərrüfat tullantılarının atılmaması, təbii ekosistemin olduğu kimi qorunması, bu sahədə iqtisadi fəaliyyət və cəmiyyət maraqlarının daha rasional uyğunlaşdırılması da müasir dövrün tələblərindədir.

Enerji ilə təminat Naxçıvanın blokadaya düşməsi ilə özünü göstərən ən kəskin problemlərdən biri olmuşdur. Ötən dövrdə muxtar respublikada həyata keçirilmiş tədbirlər enerji təhlükəsizliyi sahəsində diversifikasiyanı dərinləşdirilmiş, Naxçıvan ənənəvi və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində güclü potensiala qovuşmuşdur. Hazırda dünyadakı qlobal trendlərə uyğun olaraq ölkəmizin digər yerlərində, xüsusən də işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda olduğu kimi, Naxçıvanda da alternativ və bərpa olunan enerji mənbələrindən istifadə istiqamətində yeni layihələrin həyata keçiriləcəyi gözlənilir. Naxçıvanda artıq müsbət təcrübə qazanılmış Günəş, külək elektrik stansiyaları ilə yanaşı, yaxın gələcəkdə Avropada geniş yayılmış bioqaz istehsalı da ucqar dağ kəndlərində fərdi evlərin belə yanacaq növü ilə təminatında mühüm startap layihələri ola bilər.

Gənclərin təhsili sahəsində qarşıya qoyulmuş vəzifələr hər dövr üçün aktual olub, cəmiyyətin əsl vətənpərvər insan yetişdirmək kimi prioritetinin ana başlıqlarındandır. Bu mənada, ölkəmizdə aparılan təhsil islahatları gənclərin və valideynlərin qarşılaşdıqları çətinliklərin həll olunması, eləcə də elm və təhsil ictimaiyyətinin Avropa standartlarını mənimsəməsini özündə ehtiva edir. Təhsildə şablonçuluqdan, nəhayət ki, xilas olub işə məntiqi təfəkkür və yaradıcı münasibət göstərməklə hər kəsin qabiliyyətinə görə layiqli vəzifə tutmasının bütün cəmiyyət üçün faydalı olacağının dərk edilməsi, bu mənada, aparılan islahatların təkcə institusional deyil həm də düşüncə səviyyəsində həyata keçirilməsi zərurətini yaradır. Bu mənada, muxtar respublikanın gələcək inkişafını təmin edəcək insan kapitalının yetişdirilməsi qarşıdakı dövrdə təkcə təhsil sektorunun deyil, bütün ictimaiyyətin üzərinə düşən vəzifə kimi diqqəti cəlb edir.

*İqtisadiyyatın dövlət tənzimlənməsi həmişə öz aktuallığını qoruyan məsələlərdəndir. Bu istiqamətdə qəbul olunan regional inkişaf proqramları dövlətin ali məqsədlərə çatmaq üçün qarşıya qoyulmuş vəzifələrinin yerinə yetirilməsinin bir növ yol xəritəsi kimi hər kəsə gedəcəyi yola işıq tutan, eyni zamanda daşıdığı məsuliyyəti də xatırladan ciddi bir sənəddir. Bu mənada, yeni Dövlət Proqramı Naxçıvan Muxtar Respublikasının yaxın gələcəkdə daha da inkişafının təməli olacaq, yeni perspektivlər doğuracaqdır.*

✍ **Əli CABBAROV**

## Cari tədris ilində 1028 tələbə elmi-tədqiqat işi ilə məşğul olub



Naxçıvan Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş 2022-2023-cü tədris ilində Tələbə-Elmi Cəmiyyətinin (TEC) xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin mükafatlandırma mərasimi keçirilib.

Universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, ixtisaslı kadrların yetişməsində nəzəri biliklərin vacibliyi ilə yanaşı, aparılan təcrübələr, həyata keçirilən elmi-tədqiqat işləri əsas diqqət mərkəzində olan məsələlərdəndir. TEC-in əsas məqsədi alitəhsilli mütəxəssislərin hazırlanması keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi, tələbələrin elmi-texniki potensialının qorunub saxlanılması, magistr və bakalavrların elmi-tədqiqat fəaliyyətini müasir şəraitə uyğun təşkil etməkdir.

2022-2023-cü tədris ilində TEC xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekunları barədə danışan Tələbə-Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırova bildirib ki, hər il olduğu kimi, cari tədris ilində də təşkilatın iş planının tərtib olunması və tələbələrlə əlaqələrin gücləndirilməsi kimi məsələlərin həllinə baxılıb, fakültələr üzrə cəmiyyətin sədrləri və heyəti tələbələrlə xüsusi iş aparıb. Qeyd edilib ki, bu tədris ilində 437 müəllimin rəhbərliyi ilə 1028 tələbə elmi-tədqiqat işi ilə məşğul olub.

Tədbirdə TEC xətti ilə ən yaxşı elmi-tədqiqat işləri yerinə yetirən kafedralardan Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekan müavini, Biologiya kafedrasının dosenti Hilal Qasımov kafedralarda yerinə yetirilən elmi-tədqiqat işləri barədə çıxış ediblər.

Sonra universitet və bölmələr üzrə TEC xətti ilə ən yaxşı elmi-tədqiqat işini yerinə yetirən tələbələr diplomla mükafatlandırılıb, fəallığa görə fərqlənən tələbələr təşəkkürnamə ilə təltif olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# “TikTok” Parisi partladır
## *(replika)*

*Son günlər Şimal yarımkürədə havaların istiləşməsi ilə sanki siyasi gündəmin də bir anda qaynadığı Avropadakı gərginliklər qoca qitənin tarixi qaynaqlanan münaqişələrində yeni üzünü ortaya qoyur. Keçmişindən gecələri şeytanın iş başında olduğu Fransa şəhərlərindəki qanlı hadisələr bu ölkədə və ümumiyyətlə, “fransız rifahında” yaşayan digər ölkələrdəki əsl gerçəklikləri gün üzünə çıxarır. Əsl maraq isə ötən ayın 27-də Fransada 17 yaşlı Əl-Cəzair mənşəli gəncin polis atəşi ilə öldürülməsindən sonra başlanan xaotik üsyanların artıq Belçika və İsveçrə kimi digər ölkələrə keçməsi ilə onun bütün Avropaya yayılması qorxusundan qaynaqlanır. Paris və digər böyük şəhərlərin gecələr alova büründüyü ölkədə “TikTok” və digər sosial şəbəkə platformalarına qarşı məhdudiyyətlər qoyulması, əslində, vətəndaş qarşıdurması kimi qorxulu bir nağılın fransızların da başına gəldiyindən xəbər verir.*



Fransa tarixini öyrənənlər istər orta əsrlərdə, istərsə də son iki yüz ildəki müstəmləkəçilik dövründə bu ölkənin Afrikada və digər qitələrdə 20-yə yaxın ölkənin insanlarının qanını sormaqla özünə necə rifah qurduğunu, hansı qanlı qırğınlar törətdiyini yaxşı bilirlər. Hələ İkinci Dünya müharibəsi başlayanda cəmi 40 gündə almanlara təslim olmuş Fransanın sonra azad olmasını bayram edən Əl-Cəzairlilərdən 40 min nəfəri bir gündə qətil edən Fransa gücləri sanki o dövrdən bu ölkədə yalnız ağ dərili fransızların müstəqil ola biləcəyini, yalnız onların şəhər mərkəzlərində yaşayacaqlarını, daha üstün imtiyazlara sahib ola biləcəklərini bəyan etmişdilər. Sonrakı illərdə isə daha da azğınlaşan fransız milliyyətçiliyi bu ölkənin tarix ərzində maarif, mədəniyyət və incəsənətin inkişafına verdiyi töhfələrin üzərindən qara xətlər çəkməklə, əslində, bugünkü Fransanın portretini cızmışdılar. Nəticədə, indi 68 milyondan artıq əhalisi olan, ÜDM-nin həcminə görə (2.5 trln. ABŞ dolları) Avropada Almaniyadan sonra ikinci, dünyada isə 7-ci ölkə olan Fransada yaşayan 7 milyon əcnəbi kökənli vətəndaşların hüquqlarının tapdalanması, dini və irqi diskriminasiyanın artması bu ölkədə demokratiyadan və insan hüquqlarından dəm vurulmasının nə qədər cəfəng olduğunu bir daha göstərir. 130 ildən artıq bir dövrdə Əl-Cəzairin bütün sərvətlərini sümürüb, bu ölkədə 6 milyon insanın qətlinə səbəb olmuş Fransa bu gün əkdiyini biçməklə nüvə dövləti və BMT-nin Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olmasına baxmayaraq, öz daxilində asayişi qoruya bilməməsinin cəzasını çəkir. Bu gün bütün dünya Fransadan danışmaqla bu ölkənin yalançı bürokratlarının, bələdiyyə sədrlərinin, partiya liderlərinin, yerli idarəedicilərin və bütün bunları mədh edən keçəl məddahlarının dünyaya oxuduqları moizələrin nə qədər içiboş olduğuna inanır. Hazırda təkcə 140 milyon insanın fransızca danışdığı Afrikada nüfuzunu sürətlə itirməsi, bir zamanlar isə dünyada hakim dil olan fransızcanın öz yerini ingiliscəyə verməsi obyektiv olaraq Fransanın dünyada tutduğu dırnaqarası qarantor funksiyasının da supergüclər olan ABŞ və Çin tərəfindən qəbul edilmədiyini göstərir. Özündən on min kilometr uzaqda yerləşən, heç bir tarixi-mənəvi bağları olmayan Cənubi-Qafqaza da burnunu soxan Fransanın Rusiyanın zəifləməsindən sonra burada yaradılacaq davamlı sülhə mane olmaq cəhdləri, ölkəsindəki 400 min erməninin əsirinə çevrilməsi də bu şübhələri daha da dərinləşdirir. Bu gün məğlub Ermənistanı dolayı yollarla silahla təchiz edib bu ölkədə revanşizmi daha da qızışdıran, ölkəsindəki bir ovuc erməni diasporu ilə sıx əlaqələri olan Fransa bürokratiyasının zaman-zaman ermənipərəst çıxışları, hətta dırnaqarası erməni soyqırımını inkar edənlərə qarşı həbs cəzası tətbiq etmək kimi qanun layihələri bu ölkə rəsmilərini Müsyo Jordandan da gülməli vəziyyətə salır. Böyük dramaturq M.F.Axundovun bədii təsvirinin məhsulu olan və Parisin inqilablar nəticəsində deyil, əcinnələr tərəfindən dağıdıldığına inanan bu komik personajın düşdüyü gülünc vəziyyət bu gün cənab Makronun vəziyyəti ilə müqayisədə müxtəlif tragikomik tamaşaların eyni səhnələrinə bənzəyir. Bu gün gecələri Fransa şəhərlərinin küçələrinə od vuran miqrant əsilli yeniyetmələrin və onlara qarşı çıxan ifrat sağ fransız milliyyətçilərinin vandallıq və qarətçilik hərəkətlərinin öhdəsindən gələ bilməyən həmin bu komik personajlar qardaş Türkiyədə baş verən zəlzələ zamanı “tanka ehtiyac qalmadığı” kimi ifrat ürək bulandıran bəyanatlar da vermişdilər. Ümumiyyətlə, əhalisinin 5 faizinin müsəlman olduğu Fransanın müsəlmanlara qarşı davamlı olaraq aqressiv münasibət göstərməsi, onun müsəlman qadınlarının başörtüsü məsələsinin hökumət səviyyəsində müzakirə edilən tək ölkə halına gəlməsi bu iyrənc diskriminasiya siyasətinin burada dövlət səviyyəsində necə dəstəkləndiyini bir daha göstərir. Elə baş verən son iğtişaşlar zamanı da hadisələrdən xəbər hazırlamaq üçün barrikadalar ölkəsi Fransaya ezam olunmuş Azərbaycan Televiziyasının əməkdaşlarına qarşı edilən çirkin hücum da bu fobiyanın bir təzahürü idi. Müsəlmanlara qarşı müxtəlif karikaturalarla çıxış edən fransız elitası, onun mətbuatı bunu dəfələrlə etməklə bu gün başlanan “Avropa baharı”nın zəminini hazırlayırdı.

Bir zamanlar yenə də bir fransız müstəmləkəsi olmuş Tunisdə başlanan “ərəb baharı” bir çox ölkələrin, xüsusən Suriyanın tamamilə dağılmasına, terror qruplarının boy atmasına səbəb olmaqla bütün Yaxın Şərqə ciddi zərər vurmuşdur. İnsanların gəlir bölgüsündə, normal yaşayış şərtlərində uğradığı haqsızlığa qarşı üsyan etdiyi, onlara ölkə mənşəyinə görə fərq qoyulduğu, radikal sağçıların belə insanlara qarşı amansızlığının ən yüksək səviyyəyə çatdığı Fransada bu iğtişaşların ortaya çıxması təsadüfi deyildir. Özünün keçmiş müstəmləkələrindən ildə, təxminən, 500 milyard dollar gəlir əldə edildiyi və bunun sırf fransız mənafeləri üçün xərcləndiyi Fransadakı bu ədalətsizlik bu gün küçələrə axın edən insanların motivasiyasının əsl səbəblərindən biridir. Bir-birinə qarşı gizli nifrətlərin qorunub saxlanıldığı İngiltərə ilə müqayisədə heç bir miqrantın nəinki baş nazir, heç bələdiyyə sədri də olmadığı Fransada yerli ağ fransızlar arasında işsizlik səviyyəsini 16 faizi aşmadığı halda əcnəbi mənşəli vətəndaşlarda bunun 40 faizə çatması bugünkü iğtişaşların sosioloji zəminini yaradan amillərdəndir. Buna görə də, bayrağının rənglərinin simvolik mənasına görə bərabərlik, azadlıq və ədalət anlayışlarının çoxdan unudulduğu Fransada bütün görülən sahələrdəki vəziyyətin, bütün işlərin fransız ətri iyi verdiyini söyləmək çətindir. İşlərin belə qarmaqarışıq olmasının səbəbinin “TikTok” kimi sosial media platformalarında axtarılması isə mövcud fransız hakimiyyətinin çərəsizliyinin son həddi kimi də qiymətləndirilə bilər. Halbuki belə sosial media kanallarında ən çox özünü populyar etmək istəyən də Fransanın indiki dövlət başçısı Makrondur. Dünənə qədər Fransa prezidentinin başına çırpılan yumurtanın necə sınması, yaxud onun sifətinə vurulan şillənin səsi də həmin paylaşımlarda açıqca hər kəs tərəfindən görülüb və eşidilirdi. Belə olan təqdirdə indi adam dönüb soruşmaq istəyir: – Nooldu, Makron?

**Əli CABBAROV**

## Naxçıvan Muxtar Respublikası üzrə 3 iyul 2023-cü il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 689 | 243,7 | 514,4 | 21,1 |
| 2. | Şərur rayonu | 4189 | 863,3 | 2897 | 33,6 |
| 3. | Babək rayonu | 6886 | 1455 | 2910 | 20 |
| 4. | Ordubad rayonu | 856 | 761 | 1086 | 14,3 |
| 5. | Culfa rayonu | 2181 | 1015,5 | 1534,8 | 15,1 |
| 6. | Kəngərli rayonu | 3780 | 2223 | 6045 | 27,2 |
| 7. | Şahbuz rayonu | 756 | 0 | 0 | - |
| 8. | Sədərək rayonu | 1910 | 1050 | 3831 | 36,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21247** | **7611,5** | **18818,2** | **24,7** |

## Yay mövsümündə kənd təsərrüfatı məhsulları istehsalında nələrə diqqət etməliyik



Yay mövsümündə ən çox istifadə olunan kənd təsərrüfatı təyinatlı qida məhsulları sırasında meyvələrlə yanaşı, tərəvəz və bostan bitkilərindən pomidor, xiyar, qarpız və yemiş üstünlük təşkil edir. Bu qidalar tərkibinin zənginliyinə, eyni zamanda az kalorili olduğuna görə xüsusi diqqət çəkir.

Məhsulların becərilməsindən əlavə onların saxlanması, satışı və istehlakı zamanı bir çox məsələlər diqqətdə saxlanılmalıdır. Nəzərə almaq lazımdır ki, yanlış addımlar insan orqanizmində müxtəlif fəsadlar yaradır. Belə ki, bəzi hallarda sahibkarlıq subyektləri tərəfindən məhsulların bazara çıxışının tez təşkil edilməsi üçün həddindən artıq gübrə normalarından istifadə olunur. Bununla yanaşı, məhsullar yuyulmadan istehlak edilir. Eyni zamanda bazarlardan kənar yolboyu satılan məhsullar səhərdən axşama qədər günün altında, üstüaçıq vəziyyətdə saxlanılır. Bu proses saxlanma yerlərində də müşahidə olunur. Məhsulun becərmə dövründə aqrotexniki qulluq qaydaları düzgün aparılsa da, gübrələr normada verilsə də, yuxarıda qeyd edilən hallar qida zəhərlənmələrinə səbəb olur. Hətta zəhərlənmə ölümlə də nəticələnə bilər.

Xüsusilə hazırda qarpız və yemişin daha çox istifadə olunduğunu nəzərə alaraq bildiririk ki, ölkəmizdə yemiş və qarpızın yetişmə vaxtı iyul ayının ortalarından sonra başlayır. Təbii ki, hazırda məhsulların tez yetişən sortları, o cümlədən digər ölkələrdən idxalı da mövcuddur.

Kənd təsərrüfatı məhsullarını istehlak edərkən hər kəsə diqqətli olması tövsiyə olunur.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Şəhərsalma və tikinti qanunvericiliyinə əsasən ortaq divarların və hasarların tikintisinə dair tələblər nədən ibarətdir?*

***Cavab:*** Azərbaycan Respublikasının Şəhərsalma və tikinti qanunvericiliyinə əsasən ortaq divarlar şəhərsalma və tikintiyə dair normativ sənədlərdə nəzərdə tutulmuş tələblərə və hər iki qonşunun tələbatlarına uyğun tikilməlidir. Tikinti obyektində bərpa işləri aparılarkən qonşular arasındakı razılığa, belə razılıq olmadığı təqdirdə isə tərəflərdən birinin ərizəsi ilə məhkəmənin qərarına əsasən mövcud ortaq divar layihəyə uyğun olaraq sökülə və yenidən bərpa edilə bilər.

Qonşulardan biri tərəfindən sərhəddə inşa olunmuş yanaşı divarda və ya onun müəyyən hissəsində digər qonşu tərəfindən hər hansı əlavə tikili yalnız həmin qonşunun notariat qaydasında təsdiq olunmuş razılığından sonra inşa edilə bilər. Belə hallarda divarın həmin hissəsi ortaq divar sayılır. Divarın mövcud qonşu divara paralel tikildiyi və yanaşı divarlar arasında boşluq qaldığı (divarlar arasındakı məsafə onların istismarına mane olduğu) hallarda, həmin boşluğun atmosfer yağıntılarından mühafizə olunması məqsədilə müəyyən tədbirlər görülməlidir.

Müvafiq icra hakimiyyəti orqanı (Şəhərsalma və Arxitektura Komitəsi) tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla hasarların hündürlüyü 2 metr 20 santimetrdən çox olmamalıdır. İki yanaşı torpaq sahələrinin səviyyələri müxtəlif olduqda, hasarın hündürlüyünün istinad nöqtəsi qismində torpaq sahəsinin ən yuxarı səviyyəsi qəbul edilir.

Mühəndis-kommunikasiya təminatı xətlərinin çəkilməsi üçün başqa əlverişli həll yollarının olmadığı təqdirdə, qonşu mühəndis-kommunikasiya təminatı xətlərinin öz sahəsindən keçməsinə icazə verməlidir.

Həmçinin qonşu torpaq sahələrinin şaquli planlaşdırılması zamanı atmosfer yağıntılarının və suvarma sularının bir qonşunun torpağından digərinə axmaması üçün müvafiq tədbirlər görülməlidir. Atmosfer yağıntılarından yaranan suların sahənin relyef mürəkkəbliyi ilə əlaqədar qonşu ərazilərdən keçməklə kənarlaşdırılması şəhərsalma və tikintiyə dair normativ sənədlərdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

## Kəngərli Rayon İcra Hakimiyyətinin yenilənmiş internet saytı E-GOV zonasına köçürülüb

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən Kəngərli Rayon İcra Hakimiyyətinin rəsmi internet saytı müasir proqramlaşdırma dillərindən istifadə edilərək müasir üslubda yenidən hazırlanıb.*

*www.kengerli-ih.gov.az* domen adı ilə fəaliyyət göstərən informasiya resursu Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən audit yoxlamaları aparıldıqdan sonra AzStateNet şəbəkəsində yerləşdirilməsi həyata keçirilib. Saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə “GOV.AZ” domeninə bağlı e-poçt adresi ilə (mail@kengerli-ih.gov.az) təmin olunub.




Yenilənmiş internet səhifəsinin təhlükəsizliyinin təmin olunması, optimizasiyası axtarış sistemlərinə uyğunlaşdırılması, “Google” axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Nəsirli Nərmin Nazim qızının adına olan VÖEN itdiyindən etibarsız sayılır.

***

Abdullayeva Yetər Abdulla qızının adına olan JN-192A inventar nömrəli, 10200028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayon Nehrəm qəsəbəsində Kərimov Rəfael Qulu oğlunun adına AA-008114 nömrəli torpaq sahəsinin plan və ölçüsü, MH-0032994 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 404